

# İkinci Qarabağ müharibəsində Azərbaycanın qələbəsinin səbəbləri və əhəmiyyəti

Məmmədov Nazim

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində atəşkəsin elan edildiyi 1994-cü ildən sonrakı dövrdə Azərbaycan Respublikası müvəqqəti itirilmiş torpaqlarının geri qaytarılması uğrunda səylərini bir an yaddan çıxarmamışdı, əksinə, 1994-cü ildən həm ordu quruculuğuna, həm də Azərbaycanın haqq səsinin dünyaya çatdırılmasına və diplomatik fəaliyyətə xüsusi önəm verilmişdir.

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev Dağlıq Qarabağ münaqişəsini mümkün qədər dinc vasitələrlə həll edilməsinə üstünlük verirdi. Bütün bununla yanaşı Azərbaycanın öz torpaqlarından heç vaxt imtina etməyəcəyi ilə bağlı qətiyyətli mövqedən çıxış etmişdir.

Xalqın təkidli tələbi ilə Ulu Öndər Heydər Əliyev Azərbaycanda hakimiyyətə qayıtdıqdan sonra ATƏT-in Minsk qrupunun fəaliyyətinin əhəmiyyətli şəkildə canlanmasına və münaqişənin həllinə marağın artmasına nail oldu. Ermənistan-Azərbaycan-Dağlıq Qarabağ münaqişəsi Heydər Əliyevin beynəlxalq səviyyədəki görüşlərində daim əsas mövzulardan biri idi. Onu da qeyd etmək yerinə düşərdi ki, 1993-2000-ci illərdə Heydər Əliyev bu məsələni ABŞ rəhbərliyi ilə 18, Fransa rəhbərliyi ilə 16, Rusiya rəhbərliyi ilə 28, Türkiyə rəhbərliyi ilə 78 dəfə müzakirələr aparmış və böyük müvəffəqiyyətlər əldə etmişdir.

Dahi dünya siyasətçisi Heydər Əliyev müxtəlif beynəlxalq təşkilatlardakı çıxışlarında və görüşlərində, demək olar ki, həmişə bütün diqqəti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə yönəltmişdir. Bütün bunların nəticəsində Ermənistan-Azərbaycan-Dağlıq Qarabağ münaqişəsinin həqiqi mahiyyəti dünya ictimaiyyətinə hərtərəfli çatdırılmışdır. Təsadüfi deyildir ki, AŞPA-nın sədri 2001-ci ildə bildirmişdir: "Beynəlxalq ictimaiyyətdə belə bir rəy formalaşıb ki, Ermənistan Dağlıq Qarabağı işğal edib". Bütün bunlar Dahi siyasətçi Heydər Əliyevin böyük nailiyyəti idi.

Ümummilli Lider Heydər Əliyev ATƏT çərçivəsində uğurlu fəaliyyəti nəticəsində təşkilatın 1996-cı ildə keçirilmiş Lissabon sammitində ölkənin ərazi bütövlüyünü tanıyan bəyanat qəbul edildi. Bundan sonra Minsk qrupunun fəaliyyətində irəliləyiş müşahidə olundu. Lakin, Minsk qrupuna rəhbərlik edən ABŞ, Rusiya və Fransa heç də obyektiv mövqe nümayiş etdirməmişdilər. Onların təklifləri ya Azərbaycan üçün yolverilməz olur, ya da Ermənistanın qeyri-konstruktiv mövqeyinə görə rədd olunurdu. Bütün bunlara baxmayaraq, Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilən daxili və xarici siyasət, ordu quruculuğundakı inkişaf Azərbaycanın haqlı mövqeyini tam nümayiş etdirirdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin hakimiyyəti illərində də münaqişənin sülh yolu ilə həlli üçün Azərbaycanın haqlı mövqeyi davamlı olmuşdur. İlham Əliyevin hakimiyyətdə olduğu dövr ərzində münaqişənin həllinin yalnız Azərbaycanın ərazi bütövlüyünün təmin olunması və bu ərazilər üzərində suveren dövlət hüquqlarının tanınması şəklində mümkün olduğunu bəyan etmişdir. Bütün bunlara baxmayaraq, təcavüzkar Ermənistan dövləti Dağlıq Qarabağın Azərbaycandan qoparılmasına yönəlmiş sərsəm ideyalarından dönmürdü.

Təxminən 30 ilə yaxın bir dövr ərzində Ermənistan və onun havadarları cəbhə xəttində saysız-hesabsız təxribatlara əl atmış, Azərbaycan hərbçilərini və mülki şəxsləri atəşə tutmuşlar. Azərbaycan daim bu hərəkətləri beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmış və dözümlü mövqe nümayiş etdirmişdir. Bu təxribatlar zamanı azərbaycanlı hərbçilər böyük dəyanət və fədakarlıq göstərdikləri üçün ölkə rəhbərliyi daim onları dəstəkləmiş və fəxri adlarla təltif edilmişdir. Bunlardan biri də Mübariz İbrahimov olmuşdur. 2010-cu ilin iyun ayında gizir Mübariz İbrahimov təkbaşına ermənilərlə döyüşə girmiş və çoxlu sayda düşməni məhv edə bilmişdir. Bu hadisədən sonra Ermənistanda matəm elan olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 22 iyul 2010-cu il tarixli sərəncamı ilə Mübariz İbrahimov ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür. Bu, ermənilərə və onların havadarlarına konstruktiv mövqe tutmayacaqları halda Azərbaycan oğullarının edə biləcəkləri ilə bağlı tutarlı bir işarə olmuşdur.

Dəfələrlə atəşkəsi pozan daşnak terrorçular 2016-cı il aprelin 1-dən 2-nə keçən gecə və gün ərzində Azərbaycanın mövqeləri və yaşayış məntəqələri bütün cəbhə boyu növbəti dəfə Ermənistan silahlı qüvvələri tərəfindən güclü artilleriya atəşinə tutuldu. Azərbaycan Silahlı Qüvvələrinin komandanlığı bu hücumun qarşısının alınması, mülki əhalinin təhlükəsizliyinin təmin olunması üçün Ağdərə-Tərtər-Ağdam və Xocavənd-Füzuli istiqamətində təxirəsalınmaz cavab tədbirlərinin keçirilməsi barədə qərar qəbul etdi. Döyüş nəticəsində Goranboy rayonu və Naftalan şəhərinə təhlükə yarada biləcək Talış kəndi ətrafındakı yüksəkliklər, həmçinin Seysulan məntəqəsi azad olundu. Füzuli rayonu istiqamətində yerləşən, geniş ərazini nəzarətdə saxlamaq imkanı verən strateji əhəmiyyətli Lələ-təpə yüksəkliyi də Azərbaycan ordusunun nəzarəti altına keçdi. Beləliklə, Cəbrayıl rayonunun Çocuq Mərcanlı kəndinin təhlükəsizliyi təmin olundu. Beynəlxalq qurumların müraciətləri və öz sülhsevər siyasətinin nəticəsi olaraq Azərbaycan dövləti hərbi əməliyyatları birtərəfli qaydada dayandırdı. Ermənilər növbəti dəfə xəyanətkarlıq edərək əks-hücuma keçmək istədilər. Azərbaycan Silahlı Qüvvələri uğurlu əməliyyatlar apararaq erməni birləşmələrinin uzun illər ərzində mühəndis-istehkam baxımından möhkəmləndirdiyi müdafiə xəttini yardı, strateji əhəmiyyətli bir sıra mövqeləri düşməndən azad etdi.

2016-cı ilin aprel hadisələri erməni qəsbkarlarına Azərbaycan dövlətinin və xalqının qətiyyətli mövqeyini və öz torpaqlarının azad edilməsi uğrunda mübarizəyə hazır olduğunu bir daha nümayiş etdirdi. Azərbaycan xalqı Qarabağ münaqişəsini, lazım gəlsə, silahlı yolla həll etmək hüququnu daim özündə saxlayırdı. "2018-ci il mayın 20-dən 27-nə qədər Naxçıvan Muxtar Respublikası Əlahiddə Ümumqoşun Ordusunun əks-hücum əməliyyatı nəticəsində Şərur rayonunun Ağbulaq, Qızılqaya yüksəklikləri, həmçinin Günnüt kəndi ordumuzun nəzarəti altına keçmişdir. Döyüşlər nəticəsində, ümumi olaraq, 11000 hektarlıq ərazi Ermənistan silahlı Birləşmələrinin işğalından azad edilmişdir. Bu uğurlu əməliyyat Azərbaycan Silahlı Qüvvələrinə İrəvan-Gorus-Laçın-Xankəndi avtomobil yolunu öz nəzarəti altına almasına şərait yaratdı.

Ermənistan silahlı qüvvələri həmişə olduğu kimi 2020-ci ildə də heç bir beynəlxalq qaydaya əməl etmədən Azərbaycan ərazisinə növbəti dəfə təcavüz etmiş, vandalizm və barbarlıq aktları törətmişlər. Bunun nəticəsində Azərbaycan ordusu şəhidlər vermiş, mülki əhali arasında tələfat olmuş, evlər, həyətlər dağıdılmışdır. Daha dəqiq desək Ermənistanın təcavüzü nəticəsində əsas ziyan Tovuz rayonunun 6 yaşayış məntəqəsinə - Ağdam, Əlibəyli, Dondar Quşçu, Vahidli, Yuxarı Öysüzlü və Aşağı Öysüzlü kəndlərinə dəyib, İlkin qiymətləndirmələrə görə, dinc əhaliyə məxsus 35 evin müxtəlif dərəcədə ziyan çəkdiyi müəyyən edilmiş, dövlət əmlakına da zərər dəymişdir.

Bu məsələlərə Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan nitqində aydınlıq gətirmişdir. Ali Baş Komandan qeyd etmişdir ki, iyulun 12-də erməni silahlı qüvvələri "Azərbaycan mövqelərinə artilleriya atəşi ilə zərbə endirmişlər və bu gözlənilməz zərbə nəticəsində bizim hərbçilərimiz həlak olmuş, yaralanmışlar. Ermənistan bu təxribatın səbəbkarı kimi Azərbaycanı göstərməyə cəhd etmişdir. Bizim Ermənistanla Azərbaycanın dövlət sərhədində hər hansı bir hərbi məqsədimiz yoxdur".

Qeyd edək ki, 2020-ci il iyulun 12-də Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Tovuz istiqamətindəki sərhəd ərazilərinə xaincəsinə basqınından və ordumuzun düşmənə layiqli cavabından sonra Azərbaycan vətəndaşları ağır pandemiyanın törətdiyi çətinlikləri və məhrumiyyətləri unudaraq, bir nəfər kimi Ali Baş Komandana, Silahlı Qüvvələrimizə dəstəklərini ifadə etdilər.

Azərbaycan Silahlı qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin məqsədyönlü, gündəlik qayğısı sayəsində Azərbaycan Ordusu getdikcə inkişaf etdi, müasir hərbi texnika və bacarıqlı kadrlarla təchiz olundu, silahlı qüvvələrin şəxsi heyətinin döyüş qabiliyyəti artdı, hərbi hissələrdə nizam-intizam möhkəmləndi. Bu işdə Azərbaycanın NATO ilə sülh naminə tərəfdaşlıq proqramı çərçivəsində həyata keçirilən tədbirlərin xüsusi olaraq, qardaş Türkiyə respublikası hərbçilərinin köməyi böyük idi. Eyni zamanda, müstəqilliyimizdən keçən dövr ərzində ölkənin hərbi məktəblərində: Ali Hərbi Məktəb, Ali Hərbi Təyyarəçilik Məktəbi və Ali Hərbi Dənizçilik Məktəbində onlarla ixtisas üzrə hərbi mütəxəssislər hazırlandı Azərbaycan Silahlı Qüvvələri əsl vətənpərvər olaraq formalaşırdı. Qeyd edək ki, vətənpərvərlik, öz xalqı, dili, dini, zəngin mədəniyyəti, keçdiyi tarixi yol üçün milli qürur, humanizm kimi Azərbaycan xalqının ən səciyyəvi milli-mənəvi dəyərlərini inkişaf etdirmək, gənc nəsli bu dəyərlər ruhunda tərbiyə etmək ideoloji fəaliyyətin əsas meyarı idi. Azərbaycanın dövlət müstəqilliyinin bərpa olunması və möhkəmləndirilməsi, milli ideologiyanın xalqın mədəni, mütərəqqi dini ənənələri və ümumbəşəri dəyərlər əsasında formalaşmasına qayğı göstərilməsi, bu ənənə və dəyərlərə zidd hallara qarşı mübarizə aparılması insanların mənəvi aləmini zənginləşdirir, xalqın intellektual mədəni tərəqqisinə xidmət edirdi. Azərbaycan silahlı qüvvələrinin Vətən sevgisi, Vətənə olan məhəbbəti ailədən başlamış, məktəbdə formalaşmış və həyatda möhkəmlənmişdir. Azərbaycan Silahlı Qüvvələrimizdən söz düşərkən, bir məqamı xüsusi vurğulamaq istərdik. Belə ki, Azərbaycan 44 günlük İkinci Qarabağ savaşında döyüşlərdə hərb tarixinə yenilik kimi düşən strategiyanın tətbiqi ilə ən müasir silahlardan istifadəyə xüsusi önəm verdi. Nəticədə həm sürətlə irəliləyərək işğal altındakı ərazilərimizi erməni terrorçularından təmizlədi, eyni zamanda düşmənin bütün hərbi texnikasını darmadağın etdi, canlı qüvvəsinə ciddi zərbə vurdu. Bununla da, beynəlxalq təşkilatların 30 il ərzində edə bilmədiklərini Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qısa müddətdə gerçəkləşdirərək şanlı tarix yazdı.

Müzəffər Azərbaycan Ordusu əkshəmlə əməliyyatları zamanı müasir texnoloji silahlarla düşmənin komanda-idarəetmə məntəqələrini, raket və artilleriya vasitələrini, döyüş texnikasını və təminatını sıradan çıxararaq onu faktiki olaraq iflic vəziyyətinə gətirdi. Müasir silahlar Silahlı Qüvvələrimizin güc alətlərindən yalnız biri idi. Mübaribənin taleyini müəyyənləşdirən başda Ali Baş Komandanımız olmaqla, döyüş meydanında əsl qəhrəmanlıq göstərən Azərbaycan əsgəri və onun cəsur komandirləri idi. Məhz, onların səyi nəticəsində iflic vəziyyətə düşən Ermənistan ordusu sıralarında olan köhnə və istismar müddəti bitmiş silah sistemləri də döyüşə cəlb edir və nəticəsi rüsvayçı şəkildə uduzmaq oldu. Bununla da Silahlı Qüvvələrimiz "Ermənistan ordusunun məğlubedilməzliyi" mifini darmadağın etdi. Beləliklə, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə sentyabrın 27-dən başlayan Vətən müharibəsi şanlı qələbə ilə sona çatdı.

Qırx dörd gün davam edən hərbi əməliyyatlar nəticəsində Azərbaycan Ordusu işğalçı Ermənistanın 100 illər ərzində qurduğu silahlı qüvvələrini darmadağın edərək, böyük qələbələr əldə etdi və ərazilərimiz düşmən işğalından azad oldu.

Azərbaycan Silahlı Qüvvələrinin sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks həmlə əməliyyatları nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi. Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağkənd, bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və rayonun 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəklik, Zəngilanda isə bartaz, Şükürataz yüksəkləri və daha 5 adsız yüksəklik erməni daşnak terrorçularından azad edildi.

Azərbaycan, Böyük Qələbənin şanlı müjdəsini noyabrın 8-də Qarabağın tacı sayılan, incisi hesab olunan Şuşa şəhərinin işğaldan azad edildiyi ilk saatlarda eşitdi. Bəli, bu qədim və müqəddəs yurdumuzun xilası ilə şanlı qələbəmizə yol açıldı. Düşmənin ağ bayraq qaldıraraq kapitulyasiya etməkdən başqa yolu qalmadı.

*(Davamı var)*